

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

15 dekabr 2022-ci il
cümə axşamı

1933-cü ildən çıxır
№ 49 (3612)


# TORPAQLARIMIZDA EKOLOJİ TERRORA SON QOYULMASI ÜÇÜN SƏFƏRBƏRİK

Faydalı qazıntı yataqlarının qeyri-qanuni istismarı və daşınması qeyri-hökumət təşkilatı nümayəndələrinin, ictimai fəalların Şuşada etiraz aksiyasına səbəb olub. Dekabrın 12-si səhər saatlarından başlayan aksiyada iştirakçılar faydalı qazıntı yataqları, xüsusilə Qızılbulaq qızıl və Dəmirli mis-molibden yataqlarının qanunsuz istismarına etirazlarını bildiriblər. Fəallar Azərbaycan mütəxəssislərindən ibarət heyətin həmin yataqlarda monitorinq aparılmasına Rusiya sülhməramlıları tərəfindən şərait yaradılmasını, eyni zamanda bununla bağlı lazımi tədbir görmədiyinə görə Rusiya sülhməramlılarının komandanı Andrey Volkovla görüş tələb irəli sürüblər.

Belə ki, Azərbaycan tərəfi Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərdə təbii sərvətlərin qeyri-qanuni istismarının qarşısının alınması, eləcə də ekologiyaya mənfi təsirin nəticələrinin aradan qaldırılması məqsədilə Rusiya komandanlığına dəfələrlə müraciət etsə də, bunlara cavab verilməyib və sülhməramlı kontingent tərəfindən Azərbaycanın təbii sərvətlərinin qanunsuz istismarının qarşısının alınması üçün heç bir tədbir görülməyib.

Əksinə son zamanlar təbii sərvətlərin qeyri-qanuni istismarı və talanmasında fəallaşma, o cümlədən ekoloji fəsadların genişlənməsi müşahidə olunması qeydə alınıb.



Halbuki, dekabrın 3-dən etibarən Ekologiya və Təbii Sərvətlər Nazirliyi, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşları əraziyə keçid üçün Xankəndi ilə Şuşa şəhəri arasında yerləşən Rusiya sülhməramlı kontingenti ilə danışıqlar aparıblar. Həmin ərazilərdə ekoloji fəsadların araşdırılması və ekspertlərdən ibarət qrupun monitorinqlər aparması sülhməramlı qüvvələrin komandanlığı ilə müzakirə olunub. Faydalı qazıntıların qanunsuz istismarının aparıldığı yataqlarda və müvafiq digər məntəqələrdə monitorinq, əmlakın inventarizasiyası və ekoloji araşdırma işlərinin aparılmasının vacibliyi vurğulanıb.

Xocalıda, sülhməramlı qüvvələrin qərargahında keçirilmiş müzakirələrin nəticəsi olaraq qeyd olunan fəaliyyət istiqamətləri üzrə ərazidə işlərin aparılması üçün Ekologiya və Təbii Sərvətlər Nazirliyi və digər aidiyyəti qurumların iştirakı ilə yol xəritəsinin hazırlanmasına başlanılıb. Əldə olunmuş razılığa əsasən, dekabrın 10-da faydalı qazıntıların qanunsuz istismar olunduğu Qızılbulaq və Dəmirli yataqlarına Azərbaycan nümayəndələrinin səfər etmək cəhdinə baxmayaraq, erməni separatçıları tərəfindən bu səfərə maneçilik törədilib. Rusiya sülhməramlı kontingentinin heç bir tədbir görməməsi fonunda yerli sakinlərin əvvəlcədən planlaşdırılmış aksiyası səfərə mane olub.

Bununla bağlı Azərbaycan Xarici İşlər Nazirliyi Rusiya tərəfinə müvafiq nota da təqdim edib.

Xaricdə yaşayan soydaşlarımız da bəyanat yayaraq, tələblər yerinə yetirilənə qədər həmrəylik nümayiş etdirərək mütəmadi dəstək aksiyaları keçirəcəklərini bildiriblər.

**Sözardı:** ***Dekabrın 12-dən başlayaraq Xankəndinə gedən yolda çadırlar qurub Qarabağın, eləcə də xalqımızın, dövlətimizin haqqını tələb edən, ekoloji terrora yox deyən, dinc aksiya ilə dünyanın diqqətini üzərimizə çəkən, bir sözlə, bu bir neçə gündə Azərbaycan əsgəri qədər ermənilərin qorxulu röyasına çevrilən vətəndaş cəmiyyəti təmsilçilərinin, ekoloqların bu addımını hər birimiz dəstəkləyirik.***

***Onların, Qarabağsevərlərimizin təhlükəsizliyini qoruyan, sülhməramlılarının arxasında gizlənən düşmənlərə isə nifrətlə, qəzəblə baxan Azərbaycan Polisinin, hərbi qulluqçularımızın fotolarını izləmək, sözün əsl mənasında, qürurvericidir. Bu, həm də düşmənə gözdağıdır. Qoy düşmən də, onun havadarları da görsünlər ki, biz illər öncə meydanlara axışıb canımız, qanımız bahasına hürriyyətimizi qazandıq. Bu gün də haqqımızı tələb edib bizim olanın yağmalanmasına, məhv edilməsinə göz yummayacağıq.***







*Ulu öndər siyasi fəaliyyəti, dövlət idarəçiliyindəki qətiyyəti, cəsarəti ilə böyük bir məktəb yaratdı. Onun ali hakimiyyətə ikinci dəfə qayıdışından sonra ölkəmizdə siyasi və iqtisadi sabitlik bərqərar olundu, insan hüquq və azadlıqlarının təminində normativ-hüquqi baza yaradıldı, konstitusiyamız məhz onun rəhbərliyi ilə hazırlandı.*

*Xilaskarımız dilimizi, dinimizi və tariximizi qorumaq üçün bu gün də rəğbət hissi ilə xatırlanacaq çox böyük işlərə imza atdı. Dövlətçiliyimizin siyasi-ideoloji əsaslarını və milli inkişaf konsepsiyasını hələ sovetlər dönəmində yaradaraq məhz illər sonra həmin konsepsiya əsasında xalqımızı öz həqiqi dövlət müstəqilliyinə qovuşduran bu böyük şəxsiyyətin ömür yolu hər birimizə örnəkdir.*

*Ümummilli liderimizin vəfatının 19-cu ildönümü günü Daxili İşlər Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabana gələrək müasir, müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndər Heydər Əliyevin məzarını ziyarət etmiş, xalqımızın görkəmli oğlunun abidə kompleksi önünə gül dəstələri qoyaraq, əziz xatirəsini ehtiramla yad etmişlər.*





# Səngər qəzetinin-“ƏSGƏR” in 30 yaşı tamam olur

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının mətbu orqanı “Əsgər” qəzeti respublikamızın ilk hərbi qəzetlərindəndir. 1992-ci ilin dekabr ayının 16-da ilk sayı işıq üzü görən “Əsgər”imiz bu gün də sinəsini vətənə səngər edən oğullarımızın uğurlarına, döyüş yoluna səhifələrində işıq salır.

“Əsgər” qəzeti Birinci Qarabağ döyüşlərində və 44 günlük Vətən müharibəsi zamanı erməni işğalçıları ilə ölüm-dirim mücadiləsinə qalxan, torpaqlarımızın bütövlüyünə qovuşması üçün son damla qanınadək mərdliklə döyüşən hərbi qulluqçularımızın döyüş ruhunun yüksəldilməsində, onların qəhrəmanlıqlarının təbliğində vacib rol oynayıb.

Təbliğat, maarifləndirmə missiyasını uğurla yerinə yetirməklə yanaşı, qəzet daim şəxsi heyət üçün etibarlı informasiya mənbəyi olub.

Daxili Qoşunların formalaşma tarixi, döyüş salnaməsi, şəhid və qazi hərbi qulluqçularımızın qəhrəmanlıq nümunələri, şəxsi heyətin ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə xüsusi əməliyyatlarda iştirakı, ölkəmizin müxtəlif bölgələrində dislokasiya olunmuş hərbi hissələrimizin həyatı “Əsgər” qəzetinin səhifələrində öz əksini tapıb. Qəzetdə Daxili Qoşunlarda keçirilmiş mühüm mərasimlər, aparılmış quruculuq işləri, beynəlxalq hərbi əməkdaşlıq əlaqələrimiz, şəxsi heyətin xidməti vəzifələrin yerinə yetirilməsində, habelə döyüş təlimi və idman sahəsində uğurları da dolğun işıqlandırılıb.






Bir sözlə, barıt qoxulu qəzetin səhifələrində gənc nəslin hərbi-vətənpərvərlik tərbiyəsi mövzusu daim xüsusi yer tutur. Gənclərin dövlətçilik təfəkkürünün formalaşmasına, onların hərbi xidmətə mənəvi-psixoloji cəhətdən hazırlanmasına dərc edilən materiallar öz müsbət təsirini göstərir.

“Əsgər” qəzetinin redaksiyasında ölkəmizin ilk hərbi jurnalistləri yetişib desək, yanılmarıq. Və qəzetin mövcud arxivi gələcəkdə Daxili Qoşunların tarixi haqqında araşdırma aparan tarixçilər, tədqiqatçılar, araşdırmaçı-jurnalistlər üçün çox qiymətli xəzinədir.

Məlumat üçün qeyd edək ki, “Əsgər” qəzeti Daxili İşlər Nazirliyinin Mətbəəsində ayda iki dəfə olmaqla yüksək poliqrafik standartlara uyğun, ümumi tirajı üç min nüsxədə çap olunur.

Bundan əlavə, oxucular 2014-cü ilin may ayından etibarən Daxili Qoşunların rəsmi internet səhifəsində “Əsgər” qəzetinin saylarının elektron variantı ilə də tanış ola bilərlər. Bu, qəzet üçün daha geniş oxucu kütləsinə çıxış imkanı əldə etmək deməkdir. Həmçinin qəzetin elektron arxivinin yaradılması da əhəmiyyətli addımdır.

Mətbuat xidmətinin və onun tərkib hissəsi olan “Əsgər” qəzetinin redaksiyasının səmərəli fəaliyyət göstərməsi üçün Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən lazımi şərait yaradılıb. Müasir kompüterlər, fotoaparatlar, digər texniki vasitələr redaksiyanın sərəncamına verilib.

2005-ci ilin oktyabrından ruhuma doğma bildiyim, ürəyimin pıçıltılarını, müşahidələrimi söz-söz, minra-misra bölüşdüyüm “Əsgər” qəzeti mənim üçün əsl məktəb oldu-jurnalistika məktəbi. Bu gün respublikamızda yayımlanan, əsl vətəndaşlıq və vətənpərvərlik ruhu aşılayan 138 kütləvi informasiya vasitəsində – 76 qəzet, 9 jurnal və 53 saytda vaxtilə işıq üzü görən hər bir məqaləmə görə mən “Əsgər”ə minnətdaram.

Azərbaycan əsgərini hər zaman vətənpərvərliyə səsləyən, eləcə də Daxili Qoşunların tarixini yazan bir qəzetin redaktoru olmağımla yalnız fəxr edirəm.

Qəzetin 30 illiyini qeyd edən redaksiyamıza bundan sonrakı fəaliyyətində yeni yaradıcılıq uğurları arzulayıram.

*mayor Anar Əhmədov*
*“Əsgər” qəzetinin redaktoru*

**Sözardı:** ***“Polis” qəzetinin kollektivi də yeni yaşın mübarək, əziz “Əsgər”imiz deyir. Və qələmi süngüyə çevirən “Əsgər”çilər, zehniniz iti, sözünüz kəsərli olsun. Yazdıqlarınızın bir tarix olduğunu unutmayın. Vətən varsa, əsgər də, döyüşən oğullar da hər zaman olacaq. Odur ki, irəli, Azərbaycan “Əsgər”i.***

# Polis Akademiyasında bir gün








Nərimanov rayonundakı 82 nömrəli orta məktəbin IX-XI sinif şagirdləri Polis Akademiyası ilə tanış olmaq üçün növbəti “Açıq qapı”dan keçiblər. Tədbirdə Nərimanov RPİ-nin Yetkinlik yaşına çatmayanlarla profilaktik işin təşkili bölməsinin əməkdaşları və polis veteranları iştirak ediblər.

Şagirdlər Heydər Əliyev Mərkəzi, tədris korpusları, idman meydançaları və zalları, kriminalistik şəhərcik, kitabxana, kursant yeməkxanası və yataqxanalarla tanış olublar. Bundan əlavə, şagirdlərə Polis Akademiyasına qəbul qaydaları izah edilib, kursantların maddi, sosial təminatları və imtiyazları barədə məlumatlar videoçarx vasitəsilə nümayiş olunub.

Sonra “Açıq qapı” iştirakçıları ilə xatirə şəkli çəkdirilib, bukletlər paylanılıb.

*"Polis"*

# Qan verdilər: YAŞATMAQ ÜÇÜN...



Ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar Astara Rayon Polis Şöbəsinin əməkdaşları talassemiyalı və hemofiliyalı xəstələrə dəstək olmaq məqsədilə qanvermə aksiyasına qoşulublar.

Xüsusi tibb briqadasının həkim-hematoloqları donorları müayinə etdikdən sonra onlardan qan götürüblər.

Aksiya iştirakçısı olan polis əməkdaşları qan xəstəliklərindən əziyyət çəkənlər üçün könüllü qan verməyin xeyirxah iş, nəcib əməl və vətəndaşlıq borcu olduğunu bildiriblər.

Humanitar aksiya çərçivəsində əldə edilən qan nümunələri Respublika Mərkəzi Qan Bankına göndəriləcək və irsi qan xəstəliklərindən əziyyət çəkən insanların müalicəsində istifadə olunacaq.

*Ruhiyyə Əliyeva,*
*polis kapitanı*

# Onlar sağlam həyatı seçirlər

**Nəsimi Rayon Polis İdarəsinin** təşkilatçılığı ilə 35 saylı tam orta məktəbdə “Azərbaycan gəncləri narkotikə yox deyir” mövzusunda maarifləndirmə tədbiri keçirilib. Digər hüquq mühafizə orqanları əməkdaşlarının, polis veteranlarının iştirak etdiyi bu görüşdə narkotikin sağlamlığa ciddi zərər vurduğunu, milli-mənəvi təhlükə mənbəyinə çevrildiyini diqqətə çatdıran **RPİ-nin rəisi, polis polkovniki Mirnemət Mirbabayev** narkomaniyaya qarşı aparılan qətiyyətli mübarizədən də danışıb.

Polis-məktəb-valideyn həmrəyliyinin vacibliyini xüsusi qeyd edən natiqlər səyləri birləşdirməklə gəncliyimizi, gələcəyimizi “ağ ölüm”dən qurtarmağın mümkünlüyünə inamlarını ifadə ediblər.

Antinarkotik təbliğatı çərçivəsində maarifləndirici görüşlər regionlarda da davam etdirilib.

**Belə ki, Qax Rayon Polis Şöbəsinin** təşkilatçılığı ilə Qıpçaq, Qum, Tasmanlı və Güllük kənd tam orta məktəblərində və Heydər Əliyev Mərkəzində “Narkotikə yox deyək!” mövzusunda keçirilən silsilə maarifləndirmə tədbirlərində digər aidiyyəti dövlət qurumlarının əməkdaşları, polis veteranları, gənclər və valideynlər də iştirak ediblər.

Çıxışlarda yeniyetmə və gənclərə zərərli vərdişlərdən uzaq olmaq üçün sağlam həyat tərzinə-idmana, təhsilə daha çox vaxt ayırmaları tövsiyə olunub. Həmçinin Polis Akademiyasında təhsil alıb, DİO-da işləmək arzusunda olanlar üçün hər cür şəraitin yaradıldığı da qeyd edilib.





Daha bir maarifləndirmə tədbiri Zərdab Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə 1 saylı məktəb-liseyində “Narkomaniyaya, erkən nikaha və dini radikalizmə qarşı mübarizə” mövzusunda keçirilib. Tədbirdə Rayon İcra Hakimiyyətinin, Gənclər və İdman İdarəsinin, Gənclər Evinin, eləcə də Uşaq və Ailələrə Dəstək Mərkəzinin nümayəndələri və məktəbin pedaqoji heyəti iştirak ediblər.

**RPŞ-nin rəisi, polis polkovnik-leytenantı Azər Əfəndiyev** görüşün əsas məqsədinin yeniyetmə və gəncləri zərərli vərdişlərdən qorumaq və onların sağlam yaşamasını təmin etməkdən ibarət olduğunu bildirib.

Astaranın Vaqo kənd tam orta məktəbində də şagirdlər “Narkomaniya və erkən nikahlara yox!” deyiblər. **Astara RPŞ-nin rəisi, polis polkovniki Azər Cəfərov** ölkəmizdə savadlı, sağlam gəncliyə bütün dövlət orqanlarında, o cümlədən özəl şirkətlərdə yaradılan şəraitdən danışıb. O, gələcəkdə müstəqil mövqe sahibi olmaq, şəxsiyyət kimi formalaşmaq, eləcə də yaxşı yaşamaq üçün hər bir gəncin zərərli vərdişlərdən uzaq olmasının vacibliyini bildirib.

Tədbirlərin sonunda məktəbliləri maraqlandıran suallar cavablandırılıb, narkomaniyanın zərərlərini əks etdirən videoçarx nümayiş olunub.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# Nəticələri təhlil edərkən...

## *Mühafizə edir, asayişi qoruyur və cinayətkarlıqla qətiyyətli mübarizə aparırlar*

***Sabirabad Regional Mühafizə Şöbəsi öz fəaliyyəti ilə mülkiyyət əleyhinə törədilən cinayətlərin qarşısının alınmasında həm əmlak sahiblərinin etimadını qazanıb, həm də cinayətkarlığa qarşı mübarizəyə müstəsna töhfə verir.***

Rayonun mərkəzində yerləşən və müasir tipli avadanlıqlarla təchiz olunmuş şöbənin inzibati binasında lazımi şəraitin yaradılması, eləcə də rəhbərlik tərəfindən xidmətin düzgün təşkili, başa çatmaqda olan ilin yekununu təhlil edərkən bizə nəzərəçarpan uğurlara şahidlik etmə fürsəti verdi.

Öncə ondan başlayaq ki, fiziki hazırlığı yüksək səviyyədə olan əməkdaşlardan təşkil edilmiş Mühafizə Şöbəsinin şəxsi heyəti obyekt və mənzillərdə etibarlı qorunmanı təmin etməklə, mühafizəyə qoşulmaq istəyən əmlak sahiblərinin sayını artıra bilib. Belə ki, şöbə tərəfindən mühafizə olunan 312 obyektdən 33-ü stasionar xidmətdən yararlanır, 279-u isə Mərkəzləşdirilmiş Mühafizə Məntəqəsinə qoşulub. Bu il mühafizəyə qəbul olunmuş 28 obyekt sahibindən 4-ü stasionar, 24-ü isə MMM vasitəsilə qorunmaq üçün şöbə ilə müqavilə bağlayıb.

Özünü maliyyələşdirən qurum olaraq sahibkarlarla bağlanmış yeni müqavilələr istər rentabelliyin təmin edilməsi, istər əməkdaşların əmək haqlarının və digər ödənişlərin vaxtlı-vaxtında verilməsi, istərsə də də, bizim üçün daha önəmlisi, cinayət hadisələrinin qarşısının alınması istiqamətində irəliyə atılmış bir addımdır. Onu da qeyd edək ki, obyekt və mənzillərin siqnalizasiya vasitəsi ilə mühafizəyə qəbul olunmasında Sabirabadla yanaşı, Saatlı ərazi polis orqanları tərəfindən də yaxından köməklik göstərilir.

**Sabirabad Regional Mühafizə Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Əli Babayev** qəzetimizə bildirib ki, əməkdaşların xidmət şəraitinin yaxşılaşdırılması ümdə məsələlərdən biri kimi daim diqqətdə saxlanılır. Əsaslı şəkildə təmirdən sonra bütün zəruri invertarlarla təchiz edilərək istifadəyə verilmiş Saatlı Rayon Mühafizə Bölməsinin 150 kvadratmetirlik inzibati binası, bu baxımdan, bölgədə cinayətkarlıqla qətiyyətli mübarizənin daha bir dayaq məntəqəsidir.




Ümumən, mühafizə polisində cinayət hadisələrinin qarşısının alınmasında tutucu qruplarının üzərinə böyük məsuliyyət düşür, çünki cinayətə cəhd edənlərlə ilk üz-üzə gələnlər onlar olur. Sabirabad RMŞ-nin tutucu qrupunun əməkdaşları - polis baş serjantı Vasif Süleymanov və polis serjantı Cəlal İsmiyev də rayon ərazisində mülkiyyətçilərə məxsus obyektlərin və mənzillərin etibarlı mühafizəçisi adını doğruldurlar.



Bundan əlavə, şöbənin əməkdaşları cinayətkarlığa və ictimai qaydanı pozanlara qarşı mübarizə tədbirlərini də özlərinin əsas vəzifəsi hesab edirlər. Bunun nəticəsidir ki, rayonda 2 oğurluq hadisəsinin qarşısı alınaraq 3, ictimai qaydanı pozan 5, narkotik vasitələrin qanunsuz satışı ilə məşğul olmaqda şübhəli bilinən 1 nəfər tutularaq Sabirabad RPŞ-yə təhvil verilib.

Rayondakı bazarda və ətrafındakı ticarət obyektlərində baş verən yanğının söndürülməsinə cəlb edilmiş əməkdaşlar sahibkarların əmlaklarının yalnız cinayətdən deyil, hər hansı səbəbdən törənmiş hadisədən zərərçəkməni önləmək gücündə olduqlarını təsdiq ediblər.

*Rəşad Mehtiyev,*
*polis baş serjantı*

# Polis kapitanı dünya çempionu oldu




Bu günlərdə Türkiyənin Bursa şəhərində Alpaqut Turan Döyüş Sənəti üzrə dünya çempionatı keçirilib.

Turnirdə ümumilikdə 21 ölkədən 437 idmançı batur, ayça, caymaz, qurşaq və kaçut (silahsız özünümüdafiə) sistemləri üzrə güclərini sınayıblar.

Çempionatda **DİN-in Polis Akademiyasının "Fiziki hazırlıq" kafedrasının müəllimi, polis kapitanı Natiq Eminov** da iştirak edib. O, kaçut (silahsız özünü müdafiə) sistemində iki Türkiyə və iki İraq idmançısı üzərində inamlı qələbə qazanaraq 3-cü dəfə dünya çempionu adını qazanıb.



Qaliblərə diplom və medallar təqdim edilib.

*R.Vəliyev*

# Asayişin də, təbiətin də keşiyindəyik

***Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin müvafiq qurumları ilə birgə sanitariya-gigiyena qaydalarının pozulması hallarının qarşısının alınması məqsədilə tədbirlər davam etdirir.***

Dekabrın 5-də və 6-da Bakı şəhəri və Abşeron rayonu ərazisində keçirilən növbəti belə tədbirlər zamanı Nəsimi rayonunun Cavadxan küçəsi 54 ünvanında 3 ağacın məhv edilməsi aşkar olunub. İnzibati Xətalar Məcəlləsinin 253.2-ci (meşə fonduna daxil olmayan ağac və ya kol əkilişlərinin qanunsuz kəsilməsi və ya məhv edilməsi) maddəsinin tələblərini pozduğuna görə vətəndaş Ş.Ələkbərova barəsində inzibati protokol tərtib edilib.





Xəzər rayonu ərazisində keçirilən tədbir zamanı Şüvəlan qəsəbəsi, çöllük ərazidə "Kamaz" markalı avtomobildən tullantıların boşaldılması və qalaqlanması, Abşeron rayonu ərazisində keçirilən tədbir zamanı Aşağı Güzdək qəsəbəsi ərazisində sənaye, məişət və digər qarışıq tullantıların qalaqlanması zamanı ətraf mühitin mühafizəsinə əməl edilməməsi, Qaradağ rayonunun Lökbatan qəsəbəsi Mədən küçəsində isə atmosferə atılan zərərli maddələrin zərərsizləşdirilməsi üçün tüstü bacalarına təmizləyici qurğuların quraşdırılmaması, həmçinin istehsalat və məişət tullantılarının qalaqlanması aşkar olunub.

İnzibati Xətalar Məcəlləsinin 271-ci (sənaye və məişət tullantılarının qalaqlanması və yandırılması zamanı ətraf mühitin mühafizəsi tələblərinə əməl edilməməsi) maddəsinin tələblərini pozduqlarına görə "Kamaz" markalı avtomobilin sürücüsü S.Süleymanov və Aşağı Güzdək bələdiyyəsinin sədri S.İmamverdiyev, 237.1-ci (müəssisələr, qurğular və başqa obyektlər istismara verildikdə və ya istismar müddətində ekoloji tələblərin pozulması) və 271-ci maddələrinin tələblərini pozduğuna görə isə "NAİM-1" MMC-nin direktoru Ə.Mehtiyev barəsində barəsində inzibati protokollar tərtib edilib.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

*Natiq Cavadov*
*polis mayoru*

# Uşaqlar yol hərəkəti qaydalarını öyrənirlər







***Nəsimi rayonundakı 5 nömrəli tam orta məktəbdə "Uşaqlar yol hərəkəti qaydalarını necə öyrənib?" mövzusunda maarifləndirmə tədbiri keçirilib.***

Tədbirdə müəllim heyəti, valideynlər, 1 nömrəli Uşaq-Gənclər İnkişaf Mərkəzinin və daxili işlər orqanlarının əməkdaşları iştirak edib.

**Bakı Şəhər Baş Polis İdarəsinin İctimai Təhlükəsizlik İdarəsinin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova və Bakı Şəhər Baş Polis İdarəsi Dövlət Yol Polisi İdarəsinin hərəkətin təhlükəsizliyinin təşkili və ictimai qurumlarla əlaqə bölməsinin inspektoru, polis baş leytenantı Pərvanə Muradova** çıxışlarında qeyd ediblər ki, belə görüşlərin keçirilməsində əsas məqsəd şagirdlərə yol hərəkəti qaydaları haqqında ətraflı məlumat vermək, onlara yollarda təhlükəsiz davranış vərdişlərini aşılamaqdan ibarətdir. Yol polisinin keçirdiyi maarifləndirici tədbirlərdə uşaqların yaxından iştirak etməsinin uşaq ölümü ilə nəticələnən yol nəqliyyat hadisələrinin azalmasına kömək etdiyi vurğulanıb.

Daha sonra yol hərəkəti qaydaları ilə bağlı uşaqların nəzəri bilikləri yoxlanılıb. İbtidai sinif şagirdlərindən ibarət 5 komanda arasında keçirilən yarışda fərqlənən şagirdlər diplomlarla təltif ediliblər.

Tədbir şagirdlərin ifasında əyləncəli proqramla başa çatıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# Kursantlarımız festivalda fərqlənib

Elm və Təhsil Nazirliyinin dəstəyi ilə Bakıda keçirilən "SAF 2022 - Beynəlxalq STEAM Azərbaycan Festivalı"na Polis Akademiyasının komandaları da qatılıb.

Gəncləri yeni çağırışlara hazırlamaq, innovasiyalar və rəqəmsallaşma üzrə beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə keçirilən tədbirdə ümumilikdə 350 komanda üzrə 1312 nəfər iştirak edib. Yarışda 7 xarici ölkə (Böyük Britaniya, İsveç, Türkiyə, Türkmənistan, Estoniya, Özbəkistan, Qazaxıstan) təmsil olunub.







Komandaların fəaliyyətini qiymətləndirən Fransa, İsrail, Norveç, Çin və Türkiyə mütəxəssislərindən ibarət münsiflər heyətinin qərarına əsasən Polis Akademiyasının III kurs kursantı Nihad Qənbərlinin və II kurs kursantı Fəxri Şirinovun “Polis Akademiyası-1” komandası I-ci yerə, IV kurs kursantları Məmməd Haqverdinin, Sahib Mənsimovun və Elşad Quliyevin təmsil etdiyi “Polis Akademiyası” komandası isə 3-cü yerə layiq görülüb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*

# AZYAŞLILARIN SON ÜMİDİ

## Narkotik ananı övladlarından ayrı saldı

Nərimanov RPİ-nin əməkdaşları anaları narkoman olan iki azyaşlını acınacaqlı vəziyyətdə aşkar ediblər.

Polis əməkdaşları baxımsız qalan uşaqların həyatını xilas etmək üçün rayon icra hakimiyyətinin müvafiq komissiyasının nümayəndələri ilə birlikdə onların yaşadıqları mənzilə baxış keçiriblər. Məlum olub ki, Çiçək adlı qadın bir neçə ildir ki, narkotik maddələrdən istifadə edir, hətta, buna görə ötən il uşaqları ondan alınıb dayılarının himayəsinə verilib, özü isə məcburi tibbi müalicəyə cəlb edilib. Həmin ərəfədə uşaqlar əlil olan nənələrinin ümidinə qalıb. Lakin qadın müalicədən sonra da öz əməlindən əl çəkməyib.



Komissiyanın qərarı ilə uşaqlar yaşadıqları ünvandan götürülərək Nərimanov RPİ-nin Yetkinlik yaşına çatmayanlara profilaktik işin təşkili bölməsinin əməkdaşlarının vasitəsilə “Ümid yeri” uşaq evinə yerləşdirilib. Ananın valideynlik hüququndan məhrum edilib, yenidən məcburi tibbi müalicəyə cəlb edilməsi məqsədilə lazımi sənədlər toplanır. Azyaşlıların sağlamlıq imkanları məhdud olan nənələrinin də sığınacağı yerləşdirilməsi üçün iş aparılır.

*"Polis"*

# Üçqat Azərbaycan çempionu...



Daxili işlər orqanlarının idman nailiyyətlərinə daha biri əlavə olunub. Belə ki, Baş Mühafizə İdarəsi Səbail Rayon Mühafizə İdarəsinin mülki mühafizə xidmətinin əməkdaşı Şəmsi Ağayev Strongmen Federasiyasının “Streetlifting” növü üzrə keçirilən Respublika çempionatının qalibi olub. O, paralel qollarda üzərinə 102.5 kiloqram, eləcə də turnikdə 60 kiloqram ağırlıq bağlayaraq toplamda 162.5 kiloqram çəki ilə normativləri yerinə yetirib. Bu turnirdə də rəqiblərinə şans verməyən həmkarımız üçqat Azərbaycan çempionu adına layiq görülüb.





Ş.Ağayev münsiflər tərəfindən kubok, medal və diplomla mükafatlandırılıb.

*T.Əlizadə*

# Birincilik uğrunda mübarizə apardılar



Bu günlərdə Azərbaycan Kikboksing Federasiyası tərəfindən böyüklər, gənclər və yeniyetmələr arasında Əl Oyunları İdman Sarayında kikboksinq üzrə Respublika Kuboku uğrunda çempionat baş tutub. Təşkil olunan yarışda 57 klubun 470-dən çox idmançısı gücünü sınayıb.

Çempionatda daxili işlər orqanlarının əməkdaşları da çıxış ediblər. Belə ki, Xətai RPİ 37-ci PŞ-nin YYÇ işləri üzrə inspektoru, polis kapitanı Abbas Tunc (71), Bakı Metropolitenində PŞ-nin polis serjantı Səfalı İbrahimli (91) kiloqramda aktivlərinə bürünc yazdırıblar. Bakı Metropolitenində PŞ-nin polis serjantı Amid Hüseynov isə (86) kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb.

Yarışda DİN İdman Cəmiyyətinin tərkibində Polis Akademiyasının kursantları da qatılıb. Onlardan, I kurs kursantları Qədir Əliyev (91), Yusif Məcidli (67), Əhməd Əhmədli (57), II kurs kursantları Murad Quluyev (71), Nahid Əbdülrəhimov (75), V kurs kursantları İsa Məmmədov (63,5) kiloqram çəki dərəcələrində bürünc medal qazanıblar. Onları bu yarışa DİN Polis Akademiyasının fiziki hazırlıq kafedrasının müəllimi, polis kapitanı Natiq Eminov və polis baş leytenantı Elman Həsənov hazırlayıb.

Maraqlı və gərgin idman mübarizəsinin yekununda qaliblərə müvafiq diplomlar, DİN İdman Cəmiyyətinin idman təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədova və Milli Yığma Komandanın baş məşqçisi, polis baş serjantı Hikmət Hacıyevə isə kubok təqdim olunub.

*R.Vəliyev*

8 il öncə Rusiyada azərbaycanlının qətlində şübhəli bilinən şəxs Şəmkirdə saxlanılıb.

2014-cü il mayın 4-də Rusiya Federasiyasının Tümen vilayətinin Zareçnıy rayonunda Şəmkir rayon sakini Vilayət Vəliyevin üzərində xəsarətlər olan meyitinin tapılması ilə bağlı aparılan cinayət işinin istintaqı zamanı bu əməli törədən şəxsin kimliyini müəyyən etmək mümkün olmamışdı.

**Şəmkir Rayon Polis Şöbəsinin** əməkdaşları tərəfindən aparılan araşdırmalarla bu əməlin rayon sakini, əvvəllər məhkum olunmuş E.Babayev tərəfindən törədilməsinə əsaslı şübhələr müəyyən olunub. Dekabrın 9-da keçirilən əməliyyat tədbiri nəticəsində E.Babayev şübhəli şəxs qismində saxlanılıb. O, ilkin dindirmə zamanı bu cinayət əməlini törətdiyini etiraf edib.

◆◆◆

Paytaxtın Yasamal rayonu ərazisində ayrı-ayrı vaxtlarda Bakı şəhər sakini olan iki qadının mobil telefonlarının qeyri-aşkar şəraitdə oğurlanması barədə polisə məlumatlar daxil olub.

**Bakı Şəhər Baş Polis İdarəsinin Cinayət Axtarışı İdarəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluq əməlində şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər də oğurluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş N.Əliyev saxlanılıb. Araşdırmalarla onun müxtəlif vaxtlarda daha 5 nəfərin mobil telefonlarını oğurlaması da məlum olunub.




◆◆◆

Binəqədi rayonu ərazisində Xaçmaz rayon sakini O.Qəhrəmanovun 497 manatının açıq talama yolu ilə alınması barədə polisə məlumat daxil olub.

**Binəqədi RPİ 7-ci Polis Bölməsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində soyğunçuluq əməlində şübhəli bilinən Ağstafa rayon sakini R.Muradov müəyyən olunaraq saxlanılıb.

◆◆◆

Dekabrın 6-na keçən gecə Xəzər rayonunun Şüvəlan qəsəbəsindəki evlərin birindən 15.000 manat dəyərində qızıl-zinət əşyalarının qeyri-aşkar şəraitdə oğurlanması barədə polisə məlumat daxil olub.

**Xəzər RPİ 1-ci Polis Şöbəsi** əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində oğurluq əməlində şübhəli bilinən Bakı şəhər sakini E.Babayev müəyyən olunaraq saxlanılıb.

◆◆◆

**Səbail Rayon Polis İdarəsi** əməkdaşlarının əməliyyat məlumatı əsasında keçirdikləri tədbir nəticəsində Ağstafa rayon sakini Ş.Nağıyevin idarə etdiyi “Mercedes” markalı avtomobilə baxış zamanı oradan 3 kiloqram 354 qram marixuana aşkar olunaraq götürülüb.

# STATİSTİKA

## Kriminal icmal

- Dekabrın 7-dən 14-dək olan müddət ərzində ölkə ərazisində qeydə alınan 295, əvvəlki dövrlərdən bağlı qalan 118 cinayətin açılması daxili işlər orqanlarının əməkdaşları tərəfindən təmin olunub.
- Axtarışda olduğuna görə ümumilikdə 562, o cümlədən borclu şəxs qismində axtarışda olan 402 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.
- Respublikanın avtomobil yollarında ölümlə nəticələnən 13 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 15 nəfər ölüb, 5 nəfər isə xəsarət alıb.
- Narkotiklərlə əlaqəli 128, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 24 fakt müəyyən edilib.

*Natiq Cavadov*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 10009
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 17:00
Qiyməti 40 qəpik